UOT: 336.71
JEL: E 50

ALLAHVERDİYEVA A. X.
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı
E-mail: www.arzu.allahverdiyeva783@mail.ru

MÜASİR ŞƏRAİTDƏ BANK SİSTEMİNİN DAYANİQLILIĞINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Xülasə

Tədqiqatın məqsədi: Qloballaşma şəraitində bank sisteminin dayanıqlılığına təsir göstərən amillərin araşdırılması zəruridir.

Tədqiqatın metodologiyası: sistemli təhlil.

Tədqiqatın nəticəsi: Etibarlı və nüfuzlu banklar hər zaman bank ehtiyatları ilə onlardan istifadə arasındakı tarazlığı qoruyub saxlamalıdır. Bank sektorunun kapitallaşmasının aşağı səviyyəsi, uzunmüddətli resursların payının az olması, bankların maliyyə dayanıqlığına zərər hesabına yüksək gəlir əldə etməyə səy göstərməsi, bank risklərinin idarə edilməsinin effektivliyinin aşağı səviyyəsi bankların maliyyə dayanıqlılığını aşağı salan əsas amillərdir. Bank sisteminin dayanıqlılığının təmin edilməsi üçün bu amillərin tənzimlənməsi zəruridir.

Açar sözlər: *bankın dayanıqlılığı, likvidlik, məcmu kapital, devalvasiya.*

GİRİŞ

İqtisadiyyatın qloballaşması şəraitində aktual problemlərdən biri bank sisteminin maliyyə dayanıqlılığının yüksəldilməsidir. Bank sisteminin inkişafının müasir mərhələsində xarici mühit amillərinin maliyyə institutlarının fəaliyyətinə təsiri nəzərə alınmalıdır. Böhran zamanı olduğu kimi, böhrandan sonrakı dövrlərdə də maliyyə dayanıqlılığının yüksəldilməsi, likvidliyə nail olmaq kommersiya banklarının inkişafına böyük təsir göstərir. Qloballaşma şəraitində maliyyə kapitalının konsolidasiyası baş verir, həmçinin maliyyə- kredit institutlarının sayının azaldılması hesabına bankların funksional və coğrafi genişlənməsi həyata keçirilir. Kredit institutlarının maliyyə dayanıqlılığının yüksəldilməsi onun gəlirlərinin, rəqabətqabiliyyətliliyinin artmasına, milli bank sisteminin etibarlılığına təminat verir. Müasir dövrdə kredit institutları üçün bank xidmətləri sektorunda rəqabətqabiliyyətliliyin gücləndirilməsi sahəsində əsas məsələ maliyyə dayanıqlılığının və likvidliyin idarə edilməsi ilə bağlıdır. Məhz bu səbəbdən bankların dayanıqlılığına təsir göstərən amillərin araşdırılması zəruridir.

Bank sisteminin dayanıqlılığına təsir göstərən amillər

Bank sisteminin maliyyə dayanıqlılığının təmin edilməsi hər hansı bir tarixi və ya iqtisadi dövrün müəyyən mərhələsinin problemi deyil, onu iqtisadi vəziyyətin kəskin pisləşməsi şəraitində təhlil etmək zəruridir. Bank sisteminin dayanıqlılığının təmin edilməsi həmişə iqtisadi inkişafın mərkəzi problemi olmuşdur. Onun həlli iqtisadi yüksəliş dövründə olduğu kimi, həm də iqtisadi tənəzzül, siyasi və iqtisadi risklər şəraitində də vacibdir. Bank sisteminin dayanıqlılığı:

- İqtisadi proseslərin xüsusiyyətlərinin cari vəziyyətini əks etdirir;
- Fəaliyyətin keyfiyyət göstəricisidir, yəni dayanıqlılıq bankın deyil, onun fəaliyyətinin keyfiyyətini müəyyən edir;
- Onun inkişafını sürət, quruluş, zamanla dəyişim cəhətdən tədqiq etməklə yanaşı, daxili elementlərini və xarici mühitlə qarşılıqlı əlaqəsini hərtərəfli təsvir edir.

Hal- hazırda bank sektorunun qeyri- sabit inkişafı təkcə kredit resurslarının həcminə deyil, həmçinin bütövlükdə maliyyə dayanıqlılığına mənfi təsir göstərir. Təcrübədə banklarda kapital çatışmazlığı və ümumilikdə kredit sektorunda gəlirliliyin azalması müşahidə olunur. Bank sektorunun maliyyə dayanıqlılığının idarə edilməsinin forma və metodları iqtisadi qeyri-müəyyənlik şəraitində bir- biri ilə kifayət qədər ziddiyyət təşkil edir.

Müasir şəraitdə bank sisteminin maliyyə dayanıqlılığının təmin edilməsi daha çox əhəmiy-

yət təşkil edir. Bir tərəfdən investisiyanın cəlb edilməsinin bank üçün zəruriliyi, digər tərəfdən də iqtisadiyyatdakı qeyri- sabitlik bu problemi ən çətin nəzəri və praktik məsələlərdən birinə çevirir.

Bank sektorunun maliyyə dayanıqlılığının nəzəri cəhətdən hərtərəfli təsviri üçün onun idarə edilməsini aşağıdakı şəkildə nəzərdən keçirmək zəruridir:


1. Ayrıca kommersiya bankı mövqeyindən: aktivlərin keyfiyyəti, kapitalın adekvatlığı və likvidlik.
2. Ayrıca kommersiya bankının maliyyə dayanıqlılığını bütöv bank sektorunun maliyyə dayanıqlılığı ilə əlaqədə bir sistem kimi.

Nəzəri və praktiki cəhətdən dayanıqlılıq əksər hallarda sabitlik və etibarlılıq kimi müəyyən edilir. Kredit təşkilatlarının dəqiq müəyyən edilmiş meyarları praktik olaraq yoxdur. Bir qayda olaraq maliyyə dayanıqlılığı dedikdə, aktivlərin və passivlərin keyfiyyəti, kapital adekvatlılığı hesab edilir.

Bank sektorunun maliyyə sabitliyi müxtəlif amillərin təsiri ilə müəyyən edilir. Həm kredit təşkilatlarının, həm də bank sektorunun dayanıqlılığını xarakterizə edən amillər, demək olar ki, eynidir. Bankın dayanıqlılığına təsir göstərən amillər sosial- siyasi, ümumiqtisadi və daxili amillər olmaqla qruplaşdırılır. Ümumi şəkildə bankın dayanıqlılığına təsir göstərən amilləri aşağıdakı cədvəldə aydın şəkildə görmək mümkündür.

Cədvəl 1.

Bankın dayanıqlılığına təsir göstərən amillər



Mənbə: В. Пухов "Факторы, влияющие на финансовую устойчивость коммерческого банка" Вестник Института экономики Российской академии наук 4/2012, стр. 111

Likvidlik maliyyə dayanıqlılığının əsas amili kimi

Bankın etibarlılığını və dayanıqlılığını müəyyən edən əsas keyfiyyət göstəricisi məhz likvidlikdir. Likvidlik latın sözü olan "liguidity" terminindən götürülüb, mənası reallaşmanın, maddi dəyərlərin pul vəsaitlərinə çevrilməsinin tezliyi kimi başa düşülür. Likvidlik maliyyə öhdəliklərini cəld yerinə yetirmək qabiliyyətidir, daha geniş mənada isə maliyyə öhdəliyini yerinə yetirməyə imkan yaradan, asanlıqla satıla bilən vəsaitlər olub, onların səfərbər olunmasını və

dərhal nağd pullara çevrilməsini nəzərdə tutur. Banklarda likvidliyin idarə olunması haqqında qaydalarda likvidliyə belə tərif verilir: "Likvidlik – bankın balans və balansarxası öhdəliklərini yerinə yetirmək, cəlb olunmuş vəsait mənbələrində baş vermiş və ya gözlənilən dəyişiklikləri effektiv tənzimləmək, habelə əlavə xərclərə yol vermədən aktivlərin planlaşdırılmış artımını maliyyələşdirmək qabiliyyətidir. Likvidlik riski isə – planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi, əlavə likvid vəsaitin əldə edilməsi, həmçinin bankın aktivlərinin minimal zərərlə dərhal satılması üzrə imkanların azalması riskidir" [6]. Likvidlik riski qeyri- likvid formada olan aktivlərin xeyli hissəsinin dondurulması və onların pul vəsaitlərinə çevrilməsinin mümkünsüzlüyü səbəbindən, cari maliyyə öhdəliklərinə əməl etmək qabiliyyətinin olmamasıdır. Belə risk cəlb olunmuş pul vəsaitlərinin qaytarılması üzrə öhdəliklərin icra müddətləri ilə aktivlərin pul formasına çevrilmə müddəti arasındakı uyğunsuzluqdan irəli gəlir. O, ssuda kapitalına tələbin artması və ya əmanətlərin götürülməsi ilə əlaqədar yarana biləcək problemlərlə sıx bağlıdır. Likvidlik riskini azaltmaq üçün banklar nağd pul axınının mümkün istiqamətlərini, vəsaitlərə olan ehtiyaclarını və öhdəliklərini diqqətlə izləməlidir. Bu göstərici bankların öz əmanətçiləri və kreditorları qarşısında olan öhdəliklərinin itkisiz və tam vaxtında ödəmək qabiliyyəti kimi başa düşülür. Öhdəliklər isə bankda real və potensial olmaqla iki yerə ayrılır. Real öhdəliklər bankın balansında əks olunan öhdəliklərdir. Bunlar banklararası kreditlər, cari hesablar, tələb olunanadək depozitlər və s. ola bilər. Balansarxası hesablarda olan öhdəliklər (verilmiş qarantiya məktubları, istifadə olunmamış kreditlər və s.) isə potensial öhdəliklərdir. Bəzi hallarda banklar müştərilərinin ilkin tələbi zamanı zəruri vəsaitlə onları təmin edə bilmir. Bankların öhdəlikləri ödəmək üçün müəyyən mənbəyə malik olması zəruridir. Bu mənbə olaraq bankın müxbir hesabındakı vəsait, kassasındakı nağd pul vəsaiti, banklararası ala biləcəyi kreditlər və s. ola bilər. Burada banklar elə siyasət seçməlidir ki, bu mənbələrdən istifadə edərkən itkiyə yol verilməsin. Çünki banklar hər hansı bir öhdəliyi yerinə yetirmək üçün digər bir aktivi dəyərindən aşağı sataraq zərər edə bilərlər.

Likvidliyə təsir göstərən amillərin daxili və xarici olmaqla qruplaşdırılması mümkündür. Lakin təhlil edilmə səviyyəsindən asılı olaraq, bank rəqabəti, bank infrastrukturu kimi eyni amil kommersiya bankı üçün daxili, bank sistemi üçün isə xarici amil kimi xidmət edə bilər. Həm ayrılıqda götürülmüş kommersiya bankı, həm də bank sistemi üçün dayanıqlılıq səviyyəsi iqtisadiyyatın, bazarın inkişaf səviyyəsindən, pul dövriyyəsinin vəziyyətindən, əməyin beynəlxalq bölgü xüsusiyyətindən asılıdır. Daxili amilləri əsas (gəlir və kapitalın artımı) və əlavə (bankın aktivlərinin və kapitalının keyfiyyətini xarakterizə edən amillər, gecikdirilmiş kreditlərin ümumi kredit portfelində payı) olmaqla sistemləşdirmək olar. Ümumlilkdə isə daxili amillərə aktivlərin keyfiyyəti və möhkəm kapital bazası, dayanıqlı resurs bazası, depozitlərin keyfiyyəti, xarici resurslardan asılılıq səviyyəsi, bankın imici, menecmentin yüksək səviyyəsi, problemli kreditlərin həcmi və s. aid edilir. Möhkəm kapital bazası dedikdə, bankın xüsusi vəsaitlərindən istifadənin üstünlüyü nəzərdə tutulur. Lakin inkişaf etmiş ölkələrdə bankların passivində xüsusi kapitala nisbətən cəlb edilmiş vəsaitlər üstünlük təşkil edir. Hətta bankın xüsusi kapitalı 20% təşkil edirsə, bununla müqayisədə cəlb edilmiş vəsaitlərin 80%- ə qədər olması mümkündür. Burada əsas məsələ menecmentin düzgün təşkil edilməsidir. Əgər menecment yüksək səviyyədə təşkil edilibsə, bu zaman cəlb edilmiş vəsaitlərin də səmərəli istifadəsi mümkündür. Azərbaycanda bankların illik mənfəətləri hesabına xüsusi kapitallarını artırmaq kimi imkanları çox aşağıdır. Buna görə də dövlət tərəfindən bank sektorunun inkşafı üçün vəsait ayrılmalı, onların kənardan vəsait cəlb etmək imkanları genişləndirilməlidir. Daxili amillərdən biri də aktivlərin keyfiyyətidir. Aktivlərin keyfiyyəti dörd əsas meyar ilə qiymətləndirilir:

1) Likvidlik;
2) Risk səviyyəsi;
3) Gəlirlilik;
4) Diversifikasiya oluna bilməsi.

Likvidliyə təsir göstərən xarici amillərə hüquqi bazanın effektivliyi, inkişaf səviyyəsi,

hüquqi dövlət mexanizmi, bank fəaliyyətinin hüquqi və normativ təminat bazası, banklararası qiymətli kağızlar bazarının və valyuta bazarının inkişaf səviyyəsi, ölkənin iqtisadi – siyasi vəziyyəti, yenidənmaliyyələşdirmənin zəruri səviyyədə olması, Mərkəz bank tərəfindən həyata keçirilən nəzarət sisteminin səmərəli qurulması aid edilə bilər.

Mərkəzi Bankın likvidliyin idarə edilməsi üzrə əməliyyatlarının həcm və faiz dərəcələri aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 2

Mərkəzi Bankın likvidliyin idarə edilməsi üzrə əməliyyatları

İl	Yenidən maliyyələş-dirmə		Lombard		Overnayt		Notlar	
	%dərəcəsi	Həcm	%dərəcəsi	Həcm	%dərəcəsi	Həcm	%dərəcəsi	Həcm
2005	9,0	72,2	12,0	1,0	12,0	-	-	-
2006	9,5	92,9	12,5	-	12,5	-	-	-
2007	13,0	95,3	16,0	-	16,0	-	10,56	253,2
2008	8,0	229,0	11,0	-	11,0	-	4,74	180,0
2009	2,0	1315,4	5,0	-	5,0	-	1,00	9,0
2010	3,0	1861,8	-	-	-	-	2,08	40,0
2011	5,3	2032,6	-	-	-	-	2,77	91,2
2012	5,0	3287,9	-	-	-	-	1,87	120,0
2013	4,75	3149,3	-	-	-	-	1,06	20,0
2014	3,5	3220,4	-	-	-	-	0,91	27,0
2015	3	6157,7		-		-	0,91	0,0
2016	15	2044,3	-	-	-	-	14,99	109,6

Mənbə: https://www.cbar.az/assets/3589/Bulleten-2017_yanvar.pdf

Cədvəldə də göstərildiyi kimi likvidliyin idarə edilməsi üzrə Mərkəzi Bankın istifadə etdiyi əsas maliyyə aləti yenidən maliyyələşdirmə dərəcələridir. Yenidən maliyyələşmə – Mərkəzi Bank tərəfindən digər kommersiya banklarının kreditlə təmin edilməsidir. Son zamanlar Azərbaycanda mövcud olan makroiqtisadi qeyri-sabitlik və devalvasiyadan sonra bank sferasında iqtisadi inkişaf üçün zəruri olan maliyyə vəsaitlərinin çatışmazlığı, kredit resurslarının azlığı müşahidə olunur. Mövcud çətinliklərin aradan qaldırılması, banklar vasitəsilə maliyyə axının artırılması üçün Mərkəzi Bank tərəfindən kreditlərin verilməsi qaydalarına yeni dəyişiklər edilib. İndiyə qədər Mərkəzi Bankdan götürülən mərkəzləşdirmə kreditlərinin müddəti az olduğuna görə kommersiya bankları Mərkəzi Bankdan alınan kreditləri son kredit bazarına yönləndirə bilmirdilər. Yeni qaydalara əsasən isə birillik və bir ildən artıq olan mərkəzləşdirmə kreditləri kredit əməliyyatlarına yönləndirilə bilər. Devalvasiyadan sonrakı maliyyə çətinliklərini nəzərə alaraq, Mərkəzi Bank kommersiya bankları üçün maliyyə mənbəyi rolunu icra edəcək. Mərkəzləşdirmə kreditlərinin təminatı qismində isə bankların təqdim etdikləri qiymətli kağızlar çıxış edəcək. ABŞ və Avropada da maliyyə böhranı zamanı belə yumşaltma siyasəti tətbiq edilmişdir. Mərkəzi Bankın bu qərarı həm iqtisadi vəziyyətin yaxşılaşmasına, həm də bank sisteminin dayanıqlığının artırmasına köməklik edəcək.

Etibarlı və nüfuzlu banklar hər zaman bank ehtiyatları ilə onlardan istifadə arasındakı tarazalığı qoruyub saxlamalıdır. Bankların likvidliyi təmin olunmadıqda banka olan inam azalır, nüfuzu aşağı düşür. Əhali ya banka depozit qoymur, ya da bankda olan depozitlərini geri götürür. Bu da bankın likvidliyinə mənfi təsir göstərir. Depozitlərin həcminin artırılmasını stimullaşdırmaq üçün əmanətlərin sığortalanması zəruridir. 8 may 2009- cu ildə "Əmanətlərin sığortalanması haqqında" Qanun qəbul edilmişdir. 2016- cı ildə 4 mart tarixində bu qanuna dəyişikliklər edilmişdir. Əmanətlərin sığortalanması üçün "Əmanətlərin Sığortalanması

Fondu" yaradılmışdır. Fondun sığorta ehtiyatları kompensasiyaların (sığorta hadisəsi baş verdiyi zaman sığorta olunmuş əmanətçilərə ödənilən pul vəsaiti), borc öhdəliklərinin ödənilməsi, Fondun əmlakının alınması və idarə edilməsi və s. məqsədlər üçün nəzərdə tutulmuşdur. Fonda üzv banklarda qəbul edilən əmanətlər illik faiz dərəcəsinin yuxarı həddi xarici valyuta üzrə 3 faiz və milli valyuta üzrə 15 faiz olmaqla 3 (üç) il müddətində tam sığortalanır və tam kompensassiya olunur [4]. Əmanətlərin sığortalanması sisteminin yaradılmasında əsas məqsəd banklar müflis olduqda, əhalinin əmanətlərinin itirilməsinin qarşısını almaq, əhalinin banklara inamını artırmaq və bank sisteminin dayanıqlılığını təmin etməkdir. Sığorta hadisəsi baş verdiyi zaman kompensasiya əgər əmanət milli valyutadadırsa, manatla, əgər xarici valyutadadırsa, uyğun valyuta ilə ödənilir.

Bankın məcmu kapitalının onun dayanıqlılığına təsiri

Bank sisteminin dayanıqlılığına təsir göstərən vacib amillərdən biri də bankın məcmu kapitalının miqdarıdır. Bildiyimiz kimi, banklar investisiyalar edərək müəyyən risklərlə qarşılaşır. Kredit verdikdə borcalan aldığı borcu qaytarmaya bilər (kredit riski), uğursuz həyata keçirilən əməliyyatlar (əməliyyat riski), iqtisadi mühitdə əlverişsiz dəyişikliklərin baş verməsi (bazar riski) bankın fəaliyyətinə mənfi təsir göstərə bilər, onun müflisləşməsinə səbəb ola bilər. Belə hallar isə investorların və əmanətçilərin banka olan inam və etimadını azaldır. Bu isə bankın maliyyə dayanıqlılığına birbaşa mənfi təsir göstərə bilər. Çünki banklar müflis olduqda əmanətçilər depozitlərini, investorlar isə investisiya olunmuş vəsaitlərini geri ala bilmirlər. Məcmu kapitalın yaradılmasına səbəb gözlənilməz zərərlərin qarşısını almaqdan ibarətdir. Bankın məcmu kapitalının əsas məqsədi bankın biznes strategiyasının dəstəklənməsi, daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı bankın maliyyə dayanıqlığının təmin edilməsidir. Məcmu kapital bankın ödəmə qabiliyyətinin itirilməsinə gətirib çıxara bilən mümkün zərərlərin azaldılmasına, əmanətçilərin və potensial investorların bank sisteminə etimadının artırılmasına xidmət edir [3]. Məhz bank sisteminin dayanıqlılığının təmin edilməsi üçün Mərkəzi Bank tərəfindən 2015- ci il 1 yanvar tarixindən bankların məcmu kapitalına olan minimum tələb 10 milyon manatdan 50 milyon manata qədər artırılıb.

Nüfuzun qorunması, öhdəliklərin tam məbləğdə yerinə yetirilməsi bank sisteminin dayanıqlılığının əsas göstəricilərindəndir. Bank sisteminin dayanıqlılığının təmin edilməsi bankın nüfuzu nöqteyi nəzərdən mühüm məsələdir. Belə ki, bankın nüfuzu olmasa, o xarici banklardan ucuz vəsait cəlb edə bilmir, çünki xarici banklar vəsaitlərini etibarlı banklarda yerləşdirməyə üstünlük verirlər. Nəticədə öz passivini formalaşdırmaq üçün yerli kommersiya bankları depozitlərə görə faiz dərəcələrini qaldırmaq məcburiyyətində qalırlar. Bu isə öz növbəsində kreditlərə görə faiz dərəcələrinin yüksəlməsinə gətirib çıxarır.

Azərbaycan manatının məzənnəsinin dünya neft bazarının qiymətlərindən asılı olması da bank sisteminin dayanıqlığına pis təsir göstərir. Neftin qiyməti aşağı düşdükcə valyuta kursları da ona uyğun olaraq qalxır. Buna görə də bankların valyuta riskləri də daima dəyişir. Kommersiya bankları xarici banklardan vəsaitləri də dollarla əldə edir. 2015- ci il 21 fevral tarixdə olan manatın ilk devalvasiyası, 21 dekabrda isə 2- ci devalvasiya bank sisteminin dayanıqlılığına olduqca mənfi təsir göstərdi. Bir- birinin ardınca "Gəncə Bank" ASC və "Bank of Azerbaijan" ASC- nin, 10 iyul 2015-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin verdiyi qərar ilə "EvroBank" ASC-nin və "Azərbaycan Kredit Bankı" ASC-nin, 25 yanvar 2016-cı il tarixli, 06/1 və 06/3 nömrəli qərarları ilə "Yunayted Kredit Bank" ASC və "NBCBank" ASC-nin, 27 yanvar 2016- cı il 07/01 və 07/03 nömrəli qərarları ilə "Qafqaz İnkişaf Bankı " ASC və "Atra Bank" ASC- nin, daha sonra isə "Bank Standard" QSC- nin, **Azərbaycan Respublikası** Maliyyə **Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının 21 iyul 2016-cı il tarixli qərarına əsasən "Dekabank" ASC, "Kredobank" ASC, "Parabank" ASC və "Zaminbank" ASC-nin bank lisenziyaları ləğv edildi.** Bunların ardınca Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının qərarı ilə "AGBank" ASC və "Dəmir-Bank" ASC- nin konsolidasiya olunması qərara

alındı. Bu bankların lisenziyaların ləğv olunmasına səbəb cari fəaliyyətlərini etibarlı şəkildə idarə edə bilməmələri, kreditorları qarşısında öhdəliklərini icra edə bilməməsi, kredit pertfelində problemli kreditlərin həcminin çox olması, məcmu kapitalın minimum məbləği tələbinə əməl etməməsi olmuşdur.

Son zamanlarda bir sıra kiçik bankların bağlanması bank bazarında oliqopoliyaların yaranmasına gətirib çıxara bilər. Bildiyimiz kimi rəqabət iqtisadiyyatın istənilən sahəsinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir, innovasiyaların yaranması və tətbiqinə şərait yaradır. Bank sistemi bu baxımdan istisna təşkil etmir. Bank sektorunda oliqopoliyaların yaranması bank innovasiyalarına mənfi təsir göstərə və bununla da kommersiya banklarının maliyyə dayanıqlılığını aşağı sala bilər.

NƏTİCƏ

Etibarlı və nüfuzlu banklar hər zaman bank ehtiyatları ilə onlardan istifadə arasındakı tarazlığı qoruyub saxlamalıdır. Bankların likvidliyi təmin olunmadıqda banka olan inam azalır, nüfuzu aşağı düşür. Əhali ya banka depozit qoymur, ya da bankda olan depozitlərini geri götürür. Bu da bankın likvidliyinə mənfi təsir göstərir. Ümumilikdə, bankların likvidliyini və maliyyə dayanıqlılığını aşağı salan əsas amillər aşağıdakılardır:

- bank sektorunun kapitallaşmasının aşağı səviyyəsi;
- uzunmüddətli resursların payının az olması;
- bankların maliyyə dayanıqlılığına zərər hesabına yüksək gəlir əldə etməyə səy göstərməsi;
- bank risklərinin idarə edilməsinin effektivliyinin aşağı səviyyəsi.

Bu amillərin aradan qaldırılması bank sisteminin dayanıqlılığının yüksəlməsinə səbəb olacaq.

ƏDƏBİYYAT SİYAHISI

1. Банки и банковские операции: учебник под ред. - М. КНОРУС, 2012, 272 с.
2. В. Пухов “Факторы, влияющие на финансовую устойчивость коммерческого банка” Вестник Института экономики Российской академии наук 4/2012, стр. 111
3. https://www.cbar.az/assets/3589/Bulleten-2017_yanvar.pdf
4. http://adif.az/?~/aze/content/full/24
5. www.banco.az
6. www.cbar.az

Аллахвердиева А. Х.
Докторант Государственной Управленческой Академии при Президенте Азербайджанской Республики
Email: *www.arzu.allahverdiyeva783@mail.ru*

Факторы, действующие на устойчивость банковской системы в современных условиях

Резюме

Цель исследования: Необходимо исследовать факторы, действующие на устойчивость банковской системы в условиях глобализации

Методология исследования: системный анализ

Результат исследования: Надежные и влиятельные банки должны всегда сохранять равновесие между банковскими резервами и их использованием. Основными факторами, снижающими финансовую устойчивость банков, является низкий уровень капитализации банковского сектора, малая доля долгосрочных ресурсов, стремление банков заработать высокий доход за счет убытка финансовой устойчивости, низкий уровень эффективности в управлении банковскими рисками. Для обеспечения устойчивости банковской системы необходимо отрегулировать эти факторы.

Ключевые слова: *устойчивость банка, ликвидность, совокупный капитал, девальвация.*

Allahverdiyeva A. Kh.
doctoral student of the Academy of Public Administration
under the President of the Republic of Azerbaijan
Email: *www.arzu.allahverdiyeva783@mail.ru*

Factors affecting the stability of the banking system in modern conditions.
Resume

Purpose of the research: In the context of globalization, it is necessary to investigate the factors that affect the stability of the banking system.

Research methodology: systematic analysis

Findings : Reliable and influential banks should always maintain a balance between the use of banking resources and their use. Low capitalization of the banking sector, low share of long-term resources, banks' efforts to ensure high profitability due to financial stability and low level of bank risk management are the main factors that undermine the financial stability of banks. It is necessary to adapt these factors to ensure the stability of the banking system.

Keywords: *bank stability, liquidity, aggregate capital, devaluation.*

Daxil olub: 14. 04.2017
Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Maliyyə, pul-kredit siyasəti"* şöbəsinin müdiri Paşa T.